# Əmanətlərin qaytarılması davam edir

28.760 əmanətziyə ümumilikdə 17 milyon 365 min 589 manat məbləğində fərdi birdəfəlik ödəmə verilib

«Keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin verilməsi haqqında» Azərbaycan Prezidentinin 14 mart 2012-ci il tarixli Fərmanına uyğun olaraq iyunun 1-dən etibarən Kapital Bankın xidmət məntəqələrində əmanətçilərdən müraciətlərin qəbuluna başlanılıb. Müraciətlər 31 dekabr 2012-ci il tarixinədək davam edəcək. Kapital Bankdan verilən məlumata görə, 13 iyun 2012-ci il tarixinə qədər fərdi birdəfəlik ödəmələrlə bağlı banka ümumilikdə 123.322 müraciət daxil olub. Bu müraciətlərdən 61148-i məntəqələrdən bankın Əmanətçilərə birdəfəlik ödəmələrin verilməsi mərkəzinə təqdim edilib. Göstərilən müddət ərzində 28.760 əmanətçiyə ümumilikdə 17 milyon 365 min 589 manat məbləğində fərdi birdəfəlik ödəmə verilib. İtmiş, yaxud təqdim edilmək üçün yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə bu müddətdə banka daxil olan müraciətlərin sayı isə 2.216 olub.

Kapital Bankdan qəzetimizə verilən məlumatda qeyd olunur ki, müraciətlərin çoxluğu nəzərə alınaraq, şənbə günlərində də bankın xidmət məntəqələri fəaliyyət göstərir. Həmin gün müraciətlərin qəbulu deyil, yalnız ödəmələrin verilməsi həyata keçirilir və indiyə qədər sənədlərini banka təqdim etmiş, qəbz üzrə müraciətinin icra müddəti başa çatmış əmanətçilər şənbə günü, günün birinci yarısında xidmət məntəqələrinə fərdi birdəfəlik ödəməni almaq üçün müraciət edə bilərlər.

Qeyd edək ki, müraciətlərin qəbulu və fərdi birdəfəlik ödəmələrin verilməsi məqsədilə Kapital Bank tərəfindən ümumilikdə 143 məntəqə yaradılmışdır ki, bu məntəqələrdən 65-i Bakı şəhərində, 78-i respublikamızın digər regionlarında fəaliyyət göstərir. İtmiş, yaxud yararsız vəziyyətə düşmüş əmanət kitabçaları üzrə müraciətlərin qəbulu məqsədilə isə Bakıda 3, Naxçıvan, Gəncə və Sumqayıt şəhərlərinin hər birində 1 əlavə məntəqə təşkil edilib. Digər rayon və şəhərlərdə bu qəbildən olan müraciətlər Kapital Bankın yerli filiallarında qəbul olunur.

Eyni zamanda, vətəndaşlar onları maraqlandıran suallarla (012) 498-84-52 nömrəli «Qaynar xətt»ə zəng edərək və ya emanetler@kapitalbank.az ünvanına daxil olaraq cavab tapa bilərlər. Bankın  saytında sırf fərdi birdəfəlik ödəmələrlə bağlı xüsusi bölmə yaradılıb ki, burada vətəndaşlar fərdi birdəfəlik ödəmələrə dair qanunvericilik sənədləri ilə tanış ola və bir çox suallara cavab tapa bilərlər. Bölmədə «birdəfəlik ödəmə kalkulyatoru», «öz məntəqəni tap», «ərizə formaları» və s. linklər yerləşdirilib. Burada yerləşdirilmiş kalkulyator vasitəsilə 1 yanvar 1992-ci il tarixinə keçmiş Əmanət Bankında olan əmanət qalığına əsasən, fərdi birdəfəlik ödəmə məbləğini hesablamaq olar. Yerləşdirilən ərizə formasını isə çap edib əvvəlcədən dolduraraq, digər sənədlərlə birgə məntəqəyə hazır şəkildə gətirmək mümkündür.

Bölmədə, həmçinin, məntəqələrin dislokasiya cədvəli də verilib. Bu cədvəldən istifadə etməklə əmanətçilər əmanət kitabçasındakı kassa nömrəsinə əsasən fərdi birdəfəlik ödəməni almaqdan ötrü Kapital Bankın hansı məntəqəsinə müraciət etməli olduqlarını asanlıqla müəyyənləşdirə bilərlər. Eyni zamanda, kassa nömrəsini Kapital Bankın saytında yaradılmış «Öz məntəqəni tap» bölməsinə daxil etməklə məntəqənin dəqiq ünvanını interaktiv xəritə üzərində də tapmaq mümkündür.

AYTƏN